

## HAFİZ ƏLİMƏRDANLI

# DİLİM MƏNİM

Azərbaycan elim mənim,
Azərbaycan dilim mənim.
Ürəyimdə dilim-dilim
Hər nə qədər sözüm vardır,
Nəzmə çəkib yaza bilim.

Bir mənada on sözüm var,
On sözümdə bir yozum var.
Sözlər çələng, qatar-qatar,
Nə söyləsən qəlbə çatar,
Ürəyinə bal tək yatar.

Dilimdə var şəkər mənim,
Hər sətrimə çökər mənim,
Bu bulaqdan içər sərin
Nənə, uşaq, ana, gəlin,
Bu diyara seyrə gəlin.

Dağlarında qarı çoxdur,
Bağlarında barı çoxdur.
Çaylarında sellər, sular,
Hər kəndində bir nağıl var,
Şeir, qəzəl, bayatılar.

Get Qazaxa, dinlə sazı,
Güllər açır Qarayazı.
Şeir,dastan ocağıdır,
Səməd Vurğun torpağıdır,
Söz, kəlamlar bulağıdır.

Şirvan eli ta qədimdən,
Xaqanidən, Nəsimidən,
Seyid Əzim Şirvanidən...
Saysam məgər saya gələr?
Dilimizə qüvvət verər,
Sabir yazar, Səhhət deyər.

Bakı özü şeirə yardır,
Vahid qəzəl ustadıdır,
Bəhrələnib Bəhmənyardan,
Fizulidən, Xətaidən,
Şeir, sənət aşiqidir,
Hər qəzəli musiqidir.

Muğamatla Qarabağda,
Deyilər söz solda, sağda.
Hər muğam bir xəzinədir,
Dinləyənlər bunu bilir,
Dilimizə heyran edir.

Bu dildə tutmuşdur qərar,
Təbrizdən müdrik Şəhriyar,
Cavab verən tək Bəxtiyar,
Dilimizə təkan verib,
Zirvələrdə yer göstərib.

Müşviq dili bir nəğmədir,
Cavid dili sərt kəlmədir,
Cavad dili himndən gəlir.
Hər bir nəzm dilə sərvət,
Hər bir nəsr dilə şöhrət.

Hüseyn Arif yada salır,
Məmməd Araz xatırladır,
Vətən oğullar çağırır,
Doğma dilə dayaq olsun,
Gələcəyə körpü salsın.

Gör kimlərdən bir yadigar,
Bu dil indi bizə çatar.
Torpaqları düşmənlərdən,
Dilimizi namərdlərdən
Təmizləyək deyir Vətən,
Nəsillərə paydır indən.

Dünyada çox dillər vardır,
Hər millətə biri yardır.
Neçə-neçə dillər bildim,
Amma yenə qəlbən deyim,
Ən şirindir dilim mənim.

# SƏSLƏYİR DÖYÜŞƏ BİZİ ŞƏHİDLƏR

Vətən övladına bir arxa, dirək,
Bu torpaq vermişdir duz ilə çörək.
Övladın borcudur eyləsin kömək,
İrəli, irəli, haydı igidlər,
Səsləyir döyüşə bizi şəhidlər.

Şəhidə hər zaman anadır torpaq,
Tarix də onlara eyləyər soraq.
İgidə bir timsal,Vətənə dayaq,
İrəli,irəli, haydı igidlər,
Səsləyir döyüşə bizi şəhidlər.

Şəhidin qanıdır azadlıq rəmzi,
Bu rəmzdir sabaha aparan bizi.
Qalmaz bu torpaqda düşmənin izi,
İrəli, irəli, haydı igidlər,
Səsləyir döyüşə bizi şəhidlər.

Çağırır şəhidlər Lələtəpədən,
Alqışa müntəzir həmişə Vətən.
Laləli çöllərdə ruhudur gəzən,
İrəli, irəli, haydı igidlər,
Səsləyir döyüşə bizi şəhidlər.

Şəhidlər yaşayır,ölməzdir onlar,
Düşmənə sərt sipər, dönməzdir onlar,
Parlayan ulduzlar, sönməzdir onlar,
İrəli, irəli haydı igidlər,
Səsləyir döyüşə bizi şəhidlər.

Şəhidin tək adı qoymaz düşməni,
Müqəddəs torpaqda salsın məskəni.
Şərəfdir şəhidlik, qalxsan zirvəni,
İrəli, irəli, haydı igidlər,
Səsləyir döyüşə bizi şəhidlər.

# OĞUL DEYƏR, YA DEMƏZ...

***Vətən mənə oğul desə, nə dərdim,***
***Mamır olub qayasında bitərdim.***
***Məmməd Araz***

Vətənimdə çox bulaqdan əyilib mən su içdim,
Oylaqlarda, çəmənlərdə qucaq dolu gül biçdim.
Söz deməyə neçə nağıl, neçə dastanı ölçdüm,
Heç bilmirəm, Vətən bizə oğul deyər, ya deməz.

Qarı, buzu götürməkçün zirvələrə qovuşdum,
Çinar, palıd həsrətilə duman, çəndən sovuşdum.
Hər qalanın tarixini bilənlərdən soruşdum,
Heç bilmirəm, Vətən bizə oğul deyər, ya deməz.

Vətənimdir mənə cənnət, lap tikanlar da bitsə,
Qəm kədərdən, yəqin ölləm, Vətən əgər ki, getsə.
Getməz əsla, əldə silah oğul köməyə gəlsə,
Heç bilmirəm Vətən bizə oğul deyər, ya deməz.

Şəhidlərin qanı bizə azadlığa yol açdı,
Tarixində Vətənimin azad yazıldı adı.
Düşmənlərin niyyətləri ürəklərində qaldı,
Heç bilmirəm Vətən bizə oğul deyər, ya deməz.

# LAHICIN YOLLARI

Cığırlar tanış,
Küçələr geniş,
Təbii naxış,
Hər qarış-qarış,
Döşənib daşla
Lahıcda yollar.

Bir yana yoxuş,
Bir yana eniş,

Bir yana gediş,
Bir yana gəliş,
Ömür-gün keçir.
Heç bilinməyir.

Uşaqlıq gedir,
Cavanlıq gəlir,
Kamı görməmiş,
Saçlar ağarır.
İllər az qalır.

Gedəsi olsaq,
Ay oğul,uşaq,
Gəl unutmayaq,
Cığırlar tanış,
Küçələr geniş,
Təbii naxış,
Hər qarış-qarış,
Döşənib daşla,
Gör neçə nəsil,
Salmısız yola,
Lahıc yolları,
Lahıc yolları.

# OLA BİLMƏZ

Hər gördüyün dilbərdən canan ola bilməz,
Hər gözəldən əhli-dərdi qanan ola bilməz.

Eylədin zülmünü, düşünmədin ki, yəni,
Çəkdiyim cəfadan dərman ola bilməz.

Çox çalışıb eyləmə gəl nazı-qəmzəni,
Hər görüş Leyli-Məcnundan dastan ola bilməz.

Əgər zülfünə səhərlər çəksən şanəni,
Mənsiz şanə də, tellər də səhman ola bilməz.

Şux gülməyini bizlərə eyləmə həmdəm,
Saf mirvari düzümü dəndan ola bilməz.

Vətənim gözəllər məskəni, gəl qürrələnmə,
Kipriklərin ox, qaşların kaman ola bilməz.

Gözəlim, sınasan Hafizi şöləsi sönməz,
Kəlməsində, aləm bilir  yalan ola bilməz.

# MƏNƏ DƏRMAN DEDİLƏR

Hər xəstənin var çarəsi, verilərsə dərmanı,
Mənə dərman dedilər sən tək gözəl cananı.

Hərlənib gör necə dəyişdi birdən dövran,
Bizə ilahi özü göndərdi fərmanı.

Fərman çatsa belə, nə çox dərdi-sər verdin,
Heç saya almadın, pozdun əhdi-peymanı.

Eşit məni, zülm eləmək dəbdə deyildir,
Hər cəfada vardır səfa, bilirsənmi qaydanı.

Qismət olmur hər aşiqin rastına əhli-qanan,
Bəs nə edək, necə dərək gülü-xəndanı.

Səbr eylə ey canan, tükənməzdir səbri Hafizin,
Gəl tərk etməyək, qismətimdir, bu meydanı.

Çoxdan bəlli hər gözəlin vardır öz dövranı,
Lazımdırmı qurursan imtahanı, filanı.

# ANA

Beşiyimdə layla deyib, gör necə fəğan eylədin,
Hər nazımla sən oynayıb, ömrünü qurban eylədin.

Şam sübhədək heç yatmayıb keşiyimdə dayanmısan,
Şam ki, yandı, ətrafında şövqilə pərvan eylədin.

İlk kəlməmdə "ana" deyib sanki sənə dünya verdim,
Arzuların pərvazlanıb zirvəyə məstan eylədin.

Çox çalışdın elmə mail, bu yollara nəsib olum,
Qəlbində nur, savad verdin, bacardın insan eylədin.

Hər kişiyə tək anadır, həyat ilə dövran verir,
Şux qəlbini övladına, sevgili canan eylədin.

Yüz min dəfə gəl söyləsəm, alqış sənə yenə azdır,
Tək qəlbimi sənə qurban, əvəzdir, bəyan eylədim.

Hafiz, Ana vətəndən də qabaqdadır, bilirsənmi?
Gör necə bir yük altına girməyə vicdan eylədin.

# VƏFALI QALDIQ

Sənə yar dediyim o gündən bəri,
Keçib neçə bahar, neçə də payız.
Görüş yerindəki körpə ağaclar,
Qol-budaq atsa da qalıblar yalqız.
Dinlərdik quşların nəğmələrini,
Pıçıldaşan gülün kəlmələrini,
Hərdənbir Xəzərin ləpələrini,
Dərmədən nəfəsi qulaq asardıq,
İlk dəfə onları sanki açardıq.
Yadına düşürmü, o vaxtlar sənin,
Deməyə söz tapmaq olurdu çətin.
Hər sözü götür-qoy edirdik dərin,
Görüşə getməzdən nəsə yazardıq,
Görüşçün günləri bir-bir sayardıq.
Nə tez uzaqlaşdı getdi o günlər,
Qəlbimdə qayğılar saldı düyünlər.
İndi günlər nədir,illər sürünər,
Həmin günləri biz bir yola saldıq.
Yeganə təsəlli...
Sən mənə, mən sənə vəfalı qaldıq

# HƏR PİLLƏ HƏYATIN BİR MƏNASIDIR

Həyat yollarında nə axtarırsan?
Mənasız bir yerdə məna tapırsan,
İstər sərvət toplayasan, istər şan-şöhrət,
Nail olduğuna məna qatırsan.

Sərvət də dağılır, şan-şöhrət batır,
Qondarma mənada məna da itir,
Mənasız həyatda insan yaşamır,
Vaxtını keçirib başını qatır.

Həyatın mənası yaratmaqdadır,
Yaradan insanlar illərlə qalır,
Sirlər məkanına pillələr salır,
Hər pillə həyatın bir mənasıdır.

# RÜBAİLƏR VƏ DÜBEYTİLƏR

Qızıla dəyərdə tay ola bilməz,
Dəmirdən aşiqə pay ola bilməz,
Dəmirdən alətlər olmasa ancaq,
Qızıl illər ilə topaqdan çıxmaz.

***

İncilərə saflığıdır dəyər verən,
Almaz, kömür yaranmışdır eyni şeydən,
Cilalanıb almaz gəzər barmaqlarda,
Yanar kömür, çırtıltıyla ocaqlarda.

***

Müşkü-ənbər şöhrətlidir dastanlarda,
Təravəti hər dilbərdə, xanımlarda,
Ehtiyac yox, ətirləri kifayətdir,
Nöqsan varsa, ətir, zinyət düşər yada.

***

Çox fəxrlə söyləyib qürrələnmə sən,
Əqrəblə dostluq edib ömür sürürsən.
Əqrəbin adəti sancmaq olubdur,
Məqam tapan kimi sancar qəflətən.

***

Eşqi varsa insan həyatın qurar,
Eşq olmasa həyat mənasız olar.
Eşqini sərvətə sərf edən insan,
Qoy bilsin, hər nə var dünyada qalar.

